**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRLİYİ**

**AZ1022 Bakı, Nəsimi rayonu, M.Mirqasımov küç., 1A** **www.health.gov.az**
**Tel.: (+994 12) 598 50 94 Faks: (+994 12) 493 06 95** **Elektron ünvan: office@health.gov.az**

15.02.2012 № 13

№-zə

# Ə M R

**Bakı şəhəri**

**"Məişət zorakılığının qarşısının alınması üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının təsdiq edilməsi barədə"**

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2011-ci il tarixli 537 nömrəli Fərmanının 1.2.4-cü, 1.2.8-ci və 1.3.3-cü bəndlərinin icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. "Məişət zorakılığının qarşısının alınması üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Tədbirlər Planında qeyd olunan icraçı qurumlar müəyyən olunmuş müddət ərzində tədbirlərin tam şəkildə icrasını təmin etsinlər.

3. Əmrin icrasına nəzarət Nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Nazir müavini** **Abbas Vəlibəyov**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
15.02.2012-ci il tarixli 13 nömrəli
əmri ilə təsdiq edilmişdir

**Məişət zorakılığının qarşısının alınması üzrə**
**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin**

# TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirlərin adı | İcraçı təşkilatlar | İcra müddəti |
|---|---|---|---|
| **1.2.4 Məişət zorakılığına məruz qalmış şəxslərə tibbi yardımın təşkili** | | | |
| 1. | Məişət zorakılığına məruz qalmış şəxslərə psixoloji və psixoloji reabilitasiya yardımının göstərilməsi | Psixi Sağlamlıq Mərkəzi (PSM) | Mütəmadi |
| 2. | Zəruri hallarda məişət zorakılığına məruz qalmış şəxslərə dövlət tibb müəssisələrində ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi | Respublika Klinik Xəstəxanası, 2 saylı Uşaq Klinik Xəstə-xanası, 25 saylı Şəhər Poliklinikası, 7 saylı qadın məsləhətxanası | Mütəmadi |
| 3. | Məişət zorakılığına məruz qalmış şəxslər üçün ayrılmış tibb müəssisə-lərinin mütəxəssislərinə xüsusiləşdiril-miş metodik vəsaitlərin hazırlanması və müvafiq təlimlərin təşkil edilməsi | İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) | 2012-2013 |
| 4. | Məişət zorakılığından zərər çəkmiş yetkinlik yaşına çatmamış şəxslər üçün xüsusiləşdirilmiş tibbi-psixoloji yardımın göstərilməsinə dair fərdi tövsiyələr hazırlamaq | İSİM, PSM | 2012-2013 |

| | | | |
|---|---|---|---|
| **1.2.8. Məişət zorakılığının qarşısının alınması sahəsində beynəlxalq və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq** | | | |
| 1. | Məişət zorakılığına məruz qalmış şəxslərə tibbi-psixoloji yardımın göstə-rilməsi işin təşkili və təkmilləşdirilməsi məqsədilə müvafiq beynəlxalq və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək | SN Beynəlxalq əlaqələr şöbəsi, İSİM, PSM | Mütəmadi |
| 2. | Məişət zorakılığına səbəb olan halların araşdırılması, təhlil edilməsi, onların qarşısının alınmasına yönəlmiş proq-ramların hazırlanması, maarifləndirmə tədbirlərinin təşkili və keçirilməsində müvafiq qurumlarla əməkdaşlıq etmək | Beynəlxalq əlaqələr şöbəsi, İSİM, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu | Mütəmadi |
| **1.3.3 Məişət zorakılığının qarşısının alınması sahəsində maarifləndirmə və təbliğat işinin təkmilləşdirilməsi** | | | |
| 1. | Əhali arasında (ictimai yerlərdə, təhsil ocaqlarında və s.) məişət zorakılığının mənfi tibbi-psixoloji nəticələrinin izah edilməsinə, məişət zorakılığının qarşısının alınmasına yönəlmiş qabaqlayıcı maarifləndirmə tədbirləri (görüşlər, təşviqat kampaniyaları) keçirmək | İSİM, PSM, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu | Mütəmadi |
| 2. | Hər il 2 oktyabr Beynəlxalq qeyri-zorakılıq günü, 25 noyabr Qadın zorakılığına qarşı beynəlxalq mübarizə günü və s. analoji günlərində müvafiq kütləvi aksiya və təşviqat kampaniyaları keçirmək | İSİM, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu | Hər il |